# "Türkün haqq bağıran səsi"

**Ötən ilin sonlarında işıq üzü görmüş və böyük bir zəhmət, həm də istedad gücünə qələmə alınmış bir kitab var qarşımda. Kitabın müəllifi qələminə və əxlaqına yüksək sayqım olan, ürəklə "Bacı" dediyim Göyərçin ABİDQIZIdır. Mənə avtoqrafla bağışlanmış bu kitab barəsində münasibət bildirmək istərkən akademik Rafael Hüseynovun yazmış olduğu " Ön söz " diqqətimi çəkdi.**

Yeri gəlmişkən onu da qeyd edimk " Ön söz" də barəsində Göyərçin xanımın kitab yazdığı Əhməd Cavada sonsuz sevgi özünü ifadə edib...Elə buradaca mən bir daha Əhməd Cavada, onun ruhuna və yaradıcılığına böyük DİQQƏT və SEVGİNİN şahidi oldum.

Həmin "Ön Söz " də akademik Rafael Hüseynov yazır



ki, "Göyərçin Mustafayevanın Əhməd Cavada həsr edilən kitabı millətin ruhundakı əhmədcavadşünaslıq rəfinə qoyulması vacib olan yeni cildlərdən biri kimi ürək sevindirir."

Zənnimcə bu təqdimat artıq çox və həm də ən dürüst bilgini oxucuya çatdırır. Birmənalı olaraq deyir ki, bu kitab ədəbiyyatımızın ünlülərindən olan və hər zaman yaşayacaq, seviləcək, anılacaq Əhməd Cavada layiq SÖZ ABİDƏSİDİR!

Kitabın "Ön Söz" ündə o da vurğulanıb ki, " O, ( yeni Əhməd Cavad - Ə,M,) Azərbaycan ruhunun şairi idi.O, Azərbaycan dilinin şairi idi. O, azərbaycanlı ürəyinin şairi idi." Məhz belə bir şairin faciəli taleyi, istiqlal yanğısı ilə dolu ədəbi-bədii irsi bu kitabda araşdırmaların bəhrəsi kimi oxucu qarşısına çıxarlılb."Elm və təhsil" nəşriyyatında işıq üzü görmüş kitab Ön Söz, Müəifdən, Giriş, Son söz əvəzi ilə yanaşı üç fəsildən ibarətdir.

Mən bu kitabda toplanmış yazıların dövrü mətbuatda müəyyən hissələri ilə tanış olduğumdan, kitabı gözdən keçirərkən sanki köh-




nə bir həmsöhbətimlə yenidən qarşılaşdım... yenidən baş-başa qalmaq imkanı qazanmış oldum.

Bu mənada kitabın çapını səbirsizliklə gözləyən bir oxucu kimi, indi müəllifin sevincinə də ürəkdən qoşuluram. Həm də bu kitabda "gecikmənin" səbəbini də müəllif qələmindən öyrənib " darıxmaqla deyil, meyvə vaxtında yetişir" fikri ilə də bir daha razılaşdım.

Bax elə bu kitabın müəllifi , dəyərli Göyərçin xanım da yazır ki, "Mən kitaba son nöqtəni qoymağa tələsirdim.Tələsməyən zamandı , bir də kitaba "Ön söz " ü yazmaq üçün təqdim etdiyim hörmətli Rafael müəllim idi ki, ( 3 ildən sonra) sanki bu illərin həsrətinə, 30 il sonra torpaq həsrətinə son qoyulacağını, bir də böyük şairin 130 illik yubleyini gözləyirmiş."

Bəli , bu bir həqiqətdir ki, zəhmətin bəhrəsi Sevinc bəxş edir. Bu sevinc ümummilli olanda isə onun mahiyyəti də çox-çox böyük olur.

Müəllif Sevincin mübarək, Göyərçin bacım!

**Bizimsə Oxucu Sevincimiz mübarək !**

**Əbülfət Mədətoğlu**

Ədalət.- 2023.-4 mart.- S.6.